Xalq qəzeti.-2022.-28 dekabr.-S.11.



# 90 yaşlı jurnalistə ehtiram

**Nərimanov Rayon İcra Hakimiyyətinin və Azərbaycan Mətbuat Şurasının Avrasiya Universitetində Əməkdar jurnalist Bəbir Hüseynovun 90 illik yubileyi münasibətilə keçirdiyi mərasimdə qocaman qələm sahibinin həyat və fəaliyyətinə qədirbilənliklə nəzər salınıb.**

Milli Məclisin sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgün Həbibullayev, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri Arif Hümbətov, Ağdam Rayon İcra Hakimiyyətinin nümayəndəsi Akif Hüseynov, istefada olan polkovnik Həmid Cəfərov, yubiliyarın həmkarları və yaşlı nəslin təmsilçiləri yubiliyar jurnalistin redaktorluq və ədəbi-publisistik yaradıcılığı, eləcə də ictimai həyatda fəal iştirakı barədə ətraflı söhbət açıblar, onu səmimi təbrik ediblər.

Bildirilib ki, qocaman ziyalı çoxillik səmərəli fəaliyyəti dövründə müəllimlik, rəhbər iş və jurnalistika bir-birini ahəngdar surətdə tamamlayıb. Doğma Ağdamda pedaqoji məktəb bitirib əmək fəaliyyətinə müəllim kimi başlayan Bəbir Hüseynov sonra Bakı Dövlət Universitetinin tarix fakültəsində ali təhsil alıb, rayon rəhbərliyində çalışıb. Ötən əsrin 80–90-cı illərində Ağdamda çıxan rayon qəzetinə 20 il rəhbərlik etmiş təcrübəli media xadimi məcburi köçkünlük dövründə paytaxtda çıxan müxtəlif nəşrlərdə fəaliyyətini davam etdirib. Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü Bəbir Hüseynov “Ömürdən qalan izlər”, “Həyat illərin aynasında”, “Qarabağ tarixindən səhifələr” adlı kitabların müəllifidir.

Nərimanov Rayon Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü kimi Bəbir Hüseynov təşkilatın fəaliyyətində yaxından iştirak edir, gənc nəslin milli ruhda tərbiyəsinə, məcburi köçkünlərin çətinliklərinin həll edilməsinə öz töhfəsini verir.

Mərasimdə yubiliyara Nərimanov və Ağdam Rayon icra hakimiyyətlərinin, Ağsaqqallar Şurasının, Yazıçılar və Jurnalistlər birliklərinin diplomları və xatirə hədiyyələri təqdim olunub.

Əməkdar jurnalist Bəbir Hüseynov sonda xoş sözlərə və təbriklərə görə səmimi razılığını bildirib, doğma Qarabağı yenidən xalqımıza qaytardığına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

***Tahir RÜSTƏMLİ, “Xalq qəzeti”***